**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TAMAH MOTİVİ İLƏ CİNAYƏT TÖRƏDƏNLƏRİN ŞƏXSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİNİN KRİMİNOLOJİ PROBLEMLƏRİ

İxtisas: 5611.01 – Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ

Elm sahəsi: Hüquq

İddiaçı: **Mansurov Vüqar Şəmistan oğlu**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

Elmi rəhbər: Hüquq elmləri doktoru, professor
**Habil Surxay oğlu Qurbanov**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Bəhram Saffan oğlu Zahidov**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Balacanov Elvin Paşa oğlu**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Rəşad Məmməd oğlu Şərifov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri:
Hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**
imza

Dissertasiya şurasının elmi katibi:
Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**
imza

Elmi seminarın sədri:
Hüquq elmləri doktoru
**Fərdin Yaşar oğlu Xəlilov**
imza

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasında məqsədyönlü və davamlı şəkildə aparılan sosial və iqtisadi layihələr bəşəri dəyərlərə əsaslanan ictimai tərəqqinin əsasını təşkil edir. Sosial və iqtisadi dayaqların stabil və perspektivli inkişafının əsas təminatçılarından biri ictimai-siyasi sabitlikdir. İnsan hüquq və azadlıqlarının etibarlı qorunmasını təmin edən ictimai-siyasi sabitlik cinayətkarlığa qarşı mübarizə işinin yüksək səviyyədə aparılmasının nəticəsidir.

Cinayətkarlığa qarşı mübarizə mürəkkəb məzmuna malik bir neçə istiqaməti özündə ehtiva edir. Onlardan biri cinayətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin, səbəbiyyat kompleksinin, cinayət törədənin şəxsiyyətinin öyrənilməsini və profilaktik fəaliyyətin intensivliyinin elmi təminini nəzərdə tutan kriminoloji istiqamətdir. Müasir dövrümüzdə kriminoloji biliklərə yiyələnmədən cinayətkarlığa qarşı mübarizənin effektiv təşkilini təsəvvür etmək qeyri-mümkündür.

Cinayətkarlığa qarşı mübarizənin kriminoloji istiqaməti geniş və mürəkkəb sahələri əhatə edir. Kriminal davranış sosial təzahür olduğundan onun dərk olunması sosial, psixoloji, bioloji və s. halların dəyərləndirilməsini tələb edir. Bu səbəbdən cinayətkarlığın öyrənilməsinin kriminoloji istiqaməti zamanı bir çox hüquq sahələrində olduğu kimi yalnız hüquqpozma faktından (şəxsin tutulduğu andan) müvafiq cəza təyin olunana qədər olan dövr tədqiq edilmir. Kriminoloji biliklərin köməyi ilə şəxsin ana bətnində olan dövrdən həyatını itirənə qədər kriminogenliyini şərtləndirən səbəbiyyat kompleksi öyrənilir.

Cinayətkarlıq haqqında ənənəvi baxışların dəyişməsi artıq zəruridir. Cinayətkarlığın mürəkkəb məzmun aldığı müasir dövrdə kriminal davranış yalnız səbəbli əlaqənin bir nəticəsi kimi yox, sosioloji, bioloji, psixoloji və hüquqi biliklərin kompleks istifadəsini

nəzərdə tutan eksperimental tədqiqatlar vasitəsilə araşdırılmalıdır. Cinayətlərin bu istiqamətdə tədqiqi kriminoloji laboratoriyaların, tədqiqat mərkəzlərinin (institutlarının) yaradılmasını tələb edir.

İctimai münasibətlərin inkişaf meyilləri və qloballaşma cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərinin dəyişkənliyinə səbəb olmuşdur. Yaranmış vəziyyətdə kriminoloji tədqiqatlar aparmadan cinayətkarlığa qarşı mübarizənin ümumi və konkret istiqamətlərini nəzərdə tutan dövlət proqramlarının qəbul edilməsi arzuolunan deyildir.

Qeyd olunanlar cinayətkarlığın ölkə və regional səviyyədə kriminoloji tədqiqinin əhəmiyyətini göstərir. Ancaq cinayətkarlıq mürəkkəb məzmuna və struktura malik neqativ təzahürdür. Onun daha detallaşdırılmış öyrənilməsi həyata keçiriləcək ümumi və fərdi profilaktik tədbirlərin effektivliyinə təsir etmiş olacaqdır.

Cinayətkarlığın strukturunda əhəmiyyətli yer tutan cinayət növlərindən biri tamah motivi ilə törədilən cinayətlərdir. Yüksək kriminogenliyi ilə seçilən tamah motivi ilə törədilən cinayətlər tədqiqat obyekti olaraq mürəkkəb və dayanıqlı səbəbiyyat kompleksinə malikdir. Bu növ cinayətlərin kəmiyyət və keyfiyyət göstəriciləri də fərqlidir. Azərbaycan Respublikasında qeydə alınmış cinayətlərin vəziyyəti tamah motivi ilə törədilən cinayətlərin və cinayət törətmiş şəxslərin kriminoloji xüsusiyyətlərinin öyrənilməsini zəruri edir. Ölkəmizdə 2023-cü ildə cəmi 36811 cinayət qeydə alınmışdırsa, onlardan 6951 oğurluq, 9855 narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı, 2921 yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, 5620 dələduzluq, 614 xuliqanlıq, 204 soyğunçuluq və digər cinayətlərin payına düşür. Statistik göstəricilərdən göründüyü kimi tamah motivi ilə törədilən cinayətlər ümumi cinayətlərin strukturunda kifayət qədər böyük çəkiyə malikdir.

Lakin kriminal davranışın daşıyıcısı insandır. Daha dəqiq desək, cinayətin törədilməsinin əsas səbəbi insan şəxsiyyətinin məzmununa daxil olan maraq, tələbat, həyati yönəlişlər və motivlər sistemidir. Bu səbəbdən kirminal davranışın dərk olunmasının əsas vasitələrindən biri cinayət törədənin şəxsiyyətinin kriminoloji tədqiqidir.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin və ümumilikdə, cinayət törədənin şəxsiyyətinin ölkəmizdə elmi araşdırmasının kifayət qədər aparılmaması bu sahənin kriminoloji tədqiqini zəruri edir. Azərbaycan Respublikasında qeydə alınmış cinayət törədən şəxslərin strukturunda tamah motivi ilə cinayət törədənlərin böyük çəkiyə malik olması daha sistemli və təfsilatlı kriminoloji yanaşma tələb edir.

İnsanın istənilən davranışı onun daxili aləminin təzahür formasıdır. Kriminal davranış cinayət törədənin həyat tərzinin, dünyagörüşünün, baxışlarının, inam və dəyərlərinin təsiri ilə formalaşır. Lakin bu sahədə kriminologiya elminin iki böyük məktəbinin müxtəlif yanaşmaları vardır. Cinayət törədənin şəxsiyyətində kriminogen keyfiyyətlərin yaranması səbəblərini mühit amili ilə bağlayan sosioloji yanaşma və genetik faktorların əhəmiyyətli təsirini önə çəkən antropoloji yanaşma. Hər iki yanaşmanın tərəfdarlarının fikir mübarizəsi kriminoloji tədqiqatların inkişafına və eksperimental araşdırmalarla zənginləşməsinə səbəb oluşdur.

Bundan başqa tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin hərtərəfli öyrənilməsi mühit amilinin, erkən kriminallaşmanın, kriminal peşəkarlığın, psixoloji keyfiyyətlərin bir kriminoloji xüsusiyyət kimi ətraflı tədqiqini tələb edir.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin qiymətləndirilməsi onun strukturu və tipologiyasının aparılmasından da asılıdır. Cinayət törədənin şəxsiyyətinin strukturu və tipologiyası

haqqında müxtəlif elmi fikirlərin olması vahid kriminoloji konsepsiyanın formalaşdırılmasını şərtləndirir.

Göstərilənlər tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətləri haqqında elmi-nəzəri müddəaların aparılmasına zəmin yaratsa da, bu sahədə ən problemli hallardan biri kriminoloji tədqiqatların metodoloji tərəfidir. Sosial, psixoloji, bioloji və kriminoloji biliklərin köməyi ilə eksperimentlərin həyata keçirilməsi cinayətkarlığa qarşı mübarizədə aktual və əhəmiyyətli məsələlərin həllində böyük rol oynayacaqdır. Bu sahədə əldə olunan məlumatların məhkəmə və istintaq təcrübəsində, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsində, hüquq-mühafizə orqanlarının profilaktik fəaliyyətində əhəmiyyəti kifayət qədər böyükdür.

Mövzunun cinayət-hüquqi, kriminoloji, psixoloji aspektləri ölkədaxili, həmçinin əcnəbi alimlər tərəfindən tədqiq edilmişdir. Cinayət-hüquqi və kriminoloji aspektlər F.Səməndərov, İ.Rəhimov, H.Qurbanov, Ş.Səmədova, X.Ələkbərov, B.Zahidov, Ç.Mustafayev, N.Əliyev kimi alimlər tərəfindən müxtəlif elmi əsərlərdə araşdırılmışdır. Psixoloji tərəfləri isə ölkəmizdə Ə.Bayramov, B.Əliyev, Ə.Əlizadənin əsərlərində öz əksini tapmışdır.

Tədqiq olunan mövzu ölkə xaricində də geniş kriminoloji tədqiqatlar obyektinə çevrilmişdir. Ç.Lambrozo kriminoloji təcrübədə ilk dəfə olaraq, antropometrik ölçülərdən istifadə etməyə başlamışdır. Ç.Lambrozodan sonra bu sahədə R.Qarofalo, E.Ferri, S.Poznişevin elmi mülahizələri diqqət mərkəzində olmuşdur.

Sovetlər birliyi dövründə nəşr etdirilmiş A.Saxarovun "SSRİ-də cinayətkarın şəxsiyyəti və cinayətkarlığın səbəbləri haqqında" adlı monoqrafiyası ilk fundamental əsərlərdən sayılır. Tədqiq olunan mövzu N.Leykina, V.Kudryavsev, Q.Minkovskiy, V.Luneev, S.İnşakov, A.Dolqova, V.Burlakov, N.Kropaçev, Q.Qorşenkov, S.Abelsev, V.Kosarev, R.Karpes, N.Dubinin, R.Prozumentov, A.Taybakov, M.Qonçarova, K.İqoşev, E.Kurquzkina tərəfindən

araşdırılmış, elmi-nəzəri və təcrübi aspektləri əhatə edən kriminoloji təhlili aparılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti tamah motivi ilə cinayət törədənlərin şəxsiyyəti və onun kriminogen məzmunudur. Dissertasiya işinin predmeti isə tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminogen məzmununu açıqlayan müxtəlif kriminoloji anlayış və kateqoriyalardır. Onlara tamah motivi ilə cinayət törədənlərin strukturu, tipologiyası, kriminoloji xarakteristikası, sosial və bioloji amillərin nisbəti, kəmiyyət və keyfiyyət göstəricilərinin kriminoloji təhlili və s. aid etmək olar.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin nəzəri və təcrübi aspektlərinin kriminoloji tədqiqini aparmaqla aktual və problemli məsələlər üzrə zəruri tövsiyələr hazırlamaqdır.

Göstərilən məqsəd tədqiqatın bir sıra vəzifələrini şərtləndirir. Dissertasiya işinin vəzifələrinə aşağıdakılar aiddir:

– cinayət törədənin şəxsiyyəti anlayışının fəlsəfi, psixoloji, cinayət-hüquqi tərəflərinin öyrənilməsi vasitəsi ilə kriminoloji məzmununun sərhədlərinin müəyyən edilməsi;

– bioloji və sosial halların müqayisəsi əsasında cinayət törədənin şəxsiyyətində kriminogen keyfiyyətlərin yaranması və inkişafı səbəblərinin təhlil olnması;

– kriminogen şəxsiyyətin formalaşmasını mərhələlərlə tədqiq olunmasını həyata keçirməklə müasir kriminoloji bilikləri sistemləşdirmək;

- tamah motivinin bir kriminoloji problem kimi tədqiqinə nail olmaq;

– cinayət qanunvericiliyində cinayət törədənin şəxsiyyəti ilə bağlı hüquqi boşluqların müəyyən edilməsi və təkliflərin verilməsi;

– müasir dövrdə tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji tədqiqinin zəruriliyini və əhəmiyyətini göstərmək;

– tamah motivi ilə cinayət törətmiş şəxslərin iki qrupa bölünərək (qeyri-zorakı və zorakı tamah cinayətkarlığı) kriminoloji xüsusiyyətlərinin daha detallaşdırılmış təhlilini aparmaq;

– tamah motivi ilə cinayət törədənlərin kriminoloji xüsusiyyətlərinin təsnifatını verməklə məzmununu tədqiq etmək;

– tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin strukturuna daxil olan elementlərin təsnifatını sistemləşdirməklə kriminoloji əlamətlərin bu bölgüyə daxil olmasının zəruriliyini araşdırmaq;

– tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin strukturunun tədqiqi vasitəsilə bu növ cinayətləri törədən şəxslərin tipologiyasının aparılmasına zəmin yaratmaq;

– tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin strukturu və tipologiyasının tədqiqi vasitəsilə kriminal davranışın profilaktikası ilə bağlı tədbirlərin tətbiqinin effektivliyinə dəstək olmaq;

– Azərbaycan Respublikasında tamah motivi ilə cinayət törədənlərin kriminoloji xarakteristikasını aparmaqla kəmiyyət və keyfiyyət göstəricilərinin real görüntüsünü formalaşdırmaq;

– tamah motivi ilə cinayət törədənlərin kriminoloji tədqiqinin metodoloji problemlərini müəyyən etmək və qeyri-ənənəvi kriminoloji tədqiqat metodlarının tətbiqinin əsaslandırılması üçün kriminoloji təhlillər aparmaq.

**Tədqiqatın metodları**. Dissertasiya işində ümumi elmi və xüsusi metodlardan istifadə edilmişdir. Müqayisəli və sistemli yanaşma metodlarının tətbiqi vasitəsilə tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin fəlsəfi, psixoloji, sosioloji, cinayət-hüquqi, bioloji, kriminoloji xüsusiyyətləri qabaqcıl beynəlxalq

təcrübənin təhlili və müxtəlif alimlərin elmi əsərlərində irəli sürdüyü elmi mülahizələrinin müqayisəsi əsasında tədqiq olunmuşdur. Bundan başqa tarixi yanaşma, sənədlərin öyrənilməsi, anketləşdirmə, statistik sənədlərin, göstəricilərin, hesabatların təhlili və bir sıra məntiqi metodlardan tədqiqat işində istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Cinayət törədən şəxsin cinayətkar adı ilə damğalanması müasir kriminoloji tədqiqatların əsas hədəflərindən deyil. Bu səbəbdən "cinayətkarın şəxsiyyəti" ifadəsinin əvəzinə "cinayət törədən şəxs" ifadəsinin işlədilməsi daha məqsədəuyğundur. "Cinayət törədən şəxs" ifadəsi imkan verir ki, kriminal davranışa təsir edən obyektiv və subyektiv amillər daha detallaşdırılmış təhlil edilərək öyrənilsin.

2. Cinayət törədənin şəxsiyyətinin daha dolğun və tam kriminoloji təhlili məqsədi ilə bu sahədə olan tədqiqatların iki hissəyə bölünərək araşdırılması daha arzuolunandır:

- Retrospektiv kriminoloji tədqiqat.
- Perspektiv kriminoloji tədqiqat.

Retrospektiv kriminoloji tədqiqat cinayət törədilən anadək şəxsin şəxsiyyətinin öyrənilməsi ilə bağlıdır. Perspektiv kriminoloji tədqiqat isə cinayət törədildikdən sonra şəxsiyyətin kriminogen keyfiyyətlərinin araşdırılması dövrünü əhatə edir.

Şəxs cinayət törədilənə qədər "kriminogen şəxs", cinayət törətdikdən sonra isə "cinayət törədən şəxs" adı altında tədqiq edilib öyrənilməlidir.

3. Cinayət törədənin şəxsiyyətinin daha fundamental araşdırılması, elmi-nəzəri və təcrübi problemlərinin sistemli və uzunmüddətli öyrənilməsi üçün "Kriminoloji personologiya" adlı fənnin tədrisi zəruridir.

4. Kriminal davranışın mürəkkəb məzmununun dərk olunmasında bioloji faktorlar tədqiq edilə bilər. Çünki bioloji

faktorlar insan davranışında mühüm rol oynayır. Lakin onlar kriminal davranışın həlledici və əsas səbəbi qismində çıxış edə bilməzlər. Sosial mühit bioloji amillərə təsir edərək onu qidalandırır. Kriminal davranış müxtəlif sosial, bioloji, psixoloji determinantların sintezindən yaranır. Bu səbəbdən ***bioloji və sosial amillər müqayisədə tədqiq edilməli, onların insan davranışında rolu nəzərə alınmaqla öyrənilməlidir.***

5. Daha əsaslı araşdırılması üçün tamah motivasiyası iki qrupa bölünərək "kriminal tamah" və "qeyri-kriminal tamah" formasında sistemləşdirilməli və gələcəkdə tədqiq edilməlidir. Bu səpkili qruplaşma tamah motivasiyasının daha dərindən araşdırılmasına, həmçinin cinayət törədənin şəxsiyyəti haqqında biliklərin təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Tamahın birmənalı olaraq kriminogenləşdirilməsi günümüzün tələblərinə cavab vermir. Maddi təminat və mənfəət haqqında fikirlərin kriminogenləşdirilməsi haqqında təsəvvürlər sovet dövrünün ideoloji prinsiplərinə uyğundur. Lakin müasir dəyərlər maddi mənfəət və maddi təminat haqqında fikirlərin tam fərqli olduğunu göstərir. Əgər qazanc əldə etmək, zəngin olmaq, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq sovet dövrü üçün yad, hətta təqib olunası hal hesab olunurdusa, müasir dövrdə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni meyarlar formalaşdırılmışdır.

6. Müxtəlif sosial mühit və psixoloji amillər hər bir insanın eyni anda yetkinlik yaşına çatmadığını göstərir. Lakin hüquqi müstəvidə bütün şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün zəruri olan yaş həddi eynidir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Ədalət prinsipi" adlanan 8-ci maddəsinin məzmununda tətbiq edilən cəzanın cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olması ədalət meyarı kimi göstərilmişdir. Bundan başqa CM-nin 58.3-cü maddəsində təqsirkarın şəxsiyyətinin, həmçinin 86.1-ci maddəsində

yetkinlik yaşına çatmayanların həyat və tərbiyə şəraitinin, psixi inkişaf səviyyəsinin, onun şəxsiyyətinin digər xüsusiyyətlərinin cəza təyin edilərkən nəzərə alınan hallardan biri kimi təsbit olunması cinayət törədənin şəxsiyyətinin daha dərindən qiymətləndirilməsini zəruri edir.

Cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayana cəza təyin edilərkən psixi inkişaf səviyyəsinin xüsusilə vurğulanması psixoloji yetkinliyin cinayət məsuliyyətinə cəlb olunan hər bir şəxsdə müxtəlif olduğu fikrinin dolayısı olsa da, qəbul edilməsi kimi başa düşülə bilər.

Arzuolunan haldır ki, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan məhkumların tərbiyə müəssislərində saxlanılması ilə bağlı 128-ci maddəsində şəxsiyyətin psixoloji yetkinliyi ilə bağlı yaş meyarı nəzərə alınmışdır. Həmin maddənin məzmununa görə məhkumlar tərbiyə müəssisələrində məhkəmənin qərarına əsasən iyirmi yaşınadək saxlanıla bilərlər.

Hesab edirik ki, cəza təyin edilərkən yetkinlik yaşına çatmayanların şəxsiyyətlərinin daha düzgün qiymətləndirilməsi üçün Azərbaycan Respublikası CM-nin 86.2-ci maddəsindən sonra aşağıdakı redaksiyada 86.3-cü maddə əlavə edilsin:

"86.3. Cinayət törədənin şəxsiyyəti və psixi inkişaf səviyyəsi nəzərə alınmaqla müstəsna hallarda iyirmi yaşına qədər olan şəxslər yetkinlik yaşına çatmayan şəxslər qismində cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Bu hal möhkəm rejimli tərbiyə müəssisələrində cəzalarını çəkəcək yetkinlik yaşına çatmayanlara şamil edilmir".

7. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin səciyyəvi kriminoloji xüsusiyyətlərinin aşağıdakı qaydada sistemləşdirilməsi təklif olunur:

✓ tamah motivi ilə cinayət törətmiş şəxslər kəmiyyət göstəricilərinin yüksək olduğuna görə digər cinayət törətmiş şəxslərdən fərqlənirlər;

✓ tamah motivi ilə cinayət törədən şəxslər kriminal submədəniyyətlə sıx bağlıdırlar;

✓ tamah motivi ilə cinayət törədən şəxslərə sosial mühitin təsiri böyükdür;

✓ tamah motivi ilə cinayət törədənlər kriminal davranışa səbəb olan dərin psixoloji keyfiyyətlərə malikdirlər;

✓ uşaqlıq dövründən başlayan erkən kriminallaşma tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin əks-sosial istiqamətdə formalaşmasının əsas amillərindən biridir.

8. Tamah motivi ilə cinayət törədənin şəxsiyyətinin strukturuna daxil olan xüsusiyyətlərin dairəsi cinayət törədənin şəxsiyyətinin anlayışına daxil olan bioloji, sosial, psixoloji əlamətlər üzərində qurulmalıdır. Qeyd edilənləri nəzərə alaraq tamah motivi ilə cinayət törədənin şəxsiyyətinin strukturuna daxil olan əlamətlərin təsnifatının aşağıdakı qaydada aparılması təklif olunur:

1) **Bioloji əlamətlər**: cins, yaş, fiziki qüsurlar və s. Bu əlamətlərin sosial-demoqrafik əlamətlərin sırasında yox, müstəqil verilməsi daha arzuolunandır. Bioloji əlamətlər dəyişkən xarakterə malik deyildirlər. Lakin, sosial-demoqrafik əlamətlərin (ailə tərkibi, məşğuliyyəti, yaşayış yeri və s.) dəyişmə ehtimalları mövcuddur.

2) **Sosial əlamətlər**: Bu əlamətlərin əhatə dairəsi daha genişdir. Çünki daha dinamik və dəyişkəndirlər. Sosial əlamətlərin üç istiqamətdə təsnifatlandırılmasını məqbul sayırıq:

– demoqrafik məlumatlar (ailə tərkibi, yaşayış yeri, şəhər və ya kənd sakini olması və s.);

– sosial rol və statusla bağlı əlamətlər (ailə-məişət, peşə, ictimai-siyasi sahədə);

– hüquqi əlamətlər (cinayət-hüquqi, inzibati, kriminoloji).

Hüquqi əlamətlər cinayət törədən şəxsin kriminogenliyinin məzmunu ilə bağlı olduğu üçün onun daha geniş olaraq üç qrupda təsnifatlandırılması zəruridir:

a) cinayət-hüquqi əlamətlər: məhkumluq, kriminal davranışın motiv və məqsədi, əməlin istiqaməti və xarakteri, residivlik, qrup xüsusiyyətləri və s.

b) inzibati əlamətlər: sanksiyasında inzibati həbs nəzərdə tutulan xətanın törədilməsi, inzibati xətanın təkrar törədilməsi, polis orqanına tutularaq gətirilmənin sayı və s.

c) kriminoloji əlamətlər: kriminal status, kriminal təcrübə, özünün və ya ailədə narkotik və ya alkoqol asılılığında olan şəxslərin mövcudluğu, daxili işlər orqanlarında profilaktik qeydiyyatda olması (münaqişəli ailə, penitensiar müəssisədən qayıdan şəxs kimi və ya yetkinlik yaşına çatmayanlarla bağlı polis orqanlarında olan xidmətin əməkdaşları tərəfindən profilaktik uçota alınma) və s.

3) **Psixoloji əlamətlər**: həyati yönəliş, tələbat, maraq, dünyagörüşü, meyillər, adət və ənənələr, temperament, vərdiş və bacarıqlar, xarakter və s. Bu əlamətlər emosional, iradəvi və intellektual olaraq da sistemləşdirilə bilər.

9. Kriminal əməlin xarakteri, ictimai təhlükəlilik dərəcəsi və motivi nəzərə alınmaqla tamah motivi ilə cinayət törədənlərin tipologiyası aşağıdakı qaydada aparılmalıdır:

*1) Kriminal davranışın xarakteri nəzərə alınaraq tamah motivi ilə cinayət törədənlərin tipologiyası.*

- Tamahkar tip. Zorakılıqla müşayiət edilməyən tamah motivi ilə cinayət törədən şəxslərdir. Onlar psixoloji dayanıqlığına görə digər tiplərdən fərqlənirlər. Konfliktli və digər gərgin psixo-emosional vəziyyətlərdə həyəcanlanmır və asanlıqla ünsiyyətə daxil olurlar. Bu tipə aid olan şəxslər daha çox oğurluq və dələduzluq cinayətini törədirlər. Tamahkar tipin iki alttipi mövcuddur:

a) Mənzil və ya saxlanc yerinə daxil olmaqla cinayət törədənlər.

b) Mənzil və ya saxlanc yerinə daxil olmadan cinayət törədənlər (cibgirlik, dələduzluq).

- Tamah-zorakı tip. Zorakılıqla müşayiət olunan tamah motivi ilə cinayət törədən şəxslərdir (soyğunçuluq, quldurluq). Bu tipə aid olan şəxslərin analitik təfəkkürü yüksək deyildir. Cinayəti əksər hallarda qabaqcadan planlaşdırmırlar. Tez həyəcanlanmağı, aqressivliyi və çılğınlığı ilə seçilirlər. Tamah-zorakı tipin də iki alttipi mövcuddur:

a) Cinayətdən əvvəl zorakılıq etmək üçün qərarı qəti olanlar.

b) Cinayət zamanı zorakılıq etmək qərarına gələnlər.

- Universal tip. Bu tipə aid olan şəxlər həm zorakılıqla müşayiət edilməyən, həmçinin zorakılıqla müşayiət olunan tamah motivi ilə cinayət törədirlər.

*2) Kriminal davranışın ictimai təhlükəliliyi nəzərə alınmaqla tamah motivi ilə cinayət törədənlərin tipologiyası:*

- Peşəkar tip. Kriminal yönümdə ixtisaslaşma, xüsusi bacarıq və vərdişlər bu tipin əsas xüsusiyyətlərindən biridir. Onların dolanışıq mənbəyi yalnız cinayətkar fəaliyyətdir. Kriminal mühitlə dayanıqlı və geniş əlaqələri mövcuddur.

- Adi tip. Peşəkar tipdən onu fərqləndirən xüsusi bacarıq və vərdişlərin, kriminal ixtisaslaşmanın olmamasıdır. Onlar cinayət törətməkdə israrlıdırlar.

- Situativ tip. Yaranmış şəraitin təsiri ilə cinayət törədirlər. Şəxsiyyətlərində pozitiv komponentlər üstünlük təşkil edir.

*3) Kriminal davranışın motivinə görə tamah motivi ilə cinayət törədənlərin tipologiyası:*

- Tamahkar tip. Maddi mənfəətin əldə olunmasına hədsiz aludəçilik hissi davranışlarının əsas motividir. Onlar həyatlarının maddi təminatını yalnız cinayət yolu ilə həll edirlər.

- Özünütəsdiqedən tip. Öz dominantlığını göstərmək və nüfuz qazanmaq üçün cinayət törədirlər. Daha çox yetkinlik yaşına çatmayanlar bu tipə aiddirlər.

- Konformist tip. Başqalarının təsiri ilə cinayət törədirlər. Müstəqil qərar qəbul etməkdə çətinlik çəkən və zəif iradəli bu şəxslər kriminal mühitin təsiri altına asanlıqla düşürlər.

- Marginal tip. Daha çox spirtli içki və narkotik vasitələrin əldə olunması üçün cinayət törədirlər.

- Patoloji tip. Digərlərindən kəskin fərqlənən bu tip yığımçılığa olan həvəsi ilə seçilir. Oğurladığı əmlakın lazım olub-olmaması önəmli deyil, yığımçılığa olan patoloji həvəs onu cinayətə sövq edir.

- Romantik tip. Kleptomanları göstərilən tipə aid etmək olar. Adrenalin və hisslərin qıcıqlandırılması həvəsi onlar tərəfindən törədilən cinayəti bir oyuna çevirir. Bu tipin iki alttipi mövcuddur:

a) Monokleptomanlar - konkret növ əşya və predmetlərə (qiymətli əşyalar, zərgərlik məmulatları, rəsm əsərləri və s.) həvəsi olan şəxslər;

b) Polikleptomanlar - oğurlanmış əşya və predmetlərə fərq qoyulmur.

- Üsyankar tip. Bu tipə aid olan şəxslər cinayəti paxıllıq və qısqanclıq hissindən törədirlər. Digər şəxslərin daha yaxşı maddi durumu və xoş güzaranı onlar tərəfindən törədilən cinayətlərin əsas səbəblərindən sayılır.

10.Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji tədqiqi bir-birini tamamlayan mərhələli bir prosesdir. Kriminoloji tədqiqatların tamlığını və ardıcıllığını təmin etmək üçün həmin mərhələlərin aşağıdakı qaydada sistemləşdirilməsi məqsədəuyğundur:

**1) Dərketmə mərhələsi.** Bu mərhələ kriminoloji metodların tətbiqinə qədər bütün prosesləri əhatə edir. Hazırlıq işlərinin

aparılması, tədqiqat probleminin seçilməsi və kriminoloji hipotezanın hazırlanması, tədqiqatın proqramının hazırlanması və s. dərketmə mərhələsində həyata keçirilir.

**2) Tədqiqat metodlarının tətbiqi mərhələsi.** Qeyd olunan mərhələyə tədqiqatın hərəkətdə olan texniki hissəsi aid edilməlidir. Kriminoloji tədqiqat metodlarının sınaqdan keçirilməsi (pilotaj tədqiqat) və daha sonra birbaşa tətbiqi adı çəkilən mərhələnin məzmununa daxildir.

**3) Tədqiqat metodlarının tətbiqi vasitəsilə əldə olunmuş kriminoloji informasiyanın toplanması və təhlili.** Bu mərhələ qısa olaraq **süzgəc** mərhələsi kimi adlandırıla bilər. Süzgəc mərhələsinin əsas təyinatı etibarlı və dəqiq kriminoloji informasiyanın toplanaraq sistemləşdirilməsidir.

**4) Yekun mərhələ.** Bu mərhələdə artıq fəaliyyətə yekun vurularaq **kriminoloji rəy** hazırlanır.

11. Müasir ictimai münasibətlərin dinamik inkişafı və dəyişkənliyi yeni cinayət növlərinin yaranmasını şərtləndirmişdir. Yaranmış şəraitdə ölkəmizdə cinayətkarlığın inkişaf qanunauyğunluqlarını, cinayət törədən şəxslərin kriminal davranış mexanizmlərini tədqiq edən və kriminogen duruma effektiv profilaktik təsir tədbirlərinin əsas istiqamətlərinin müəyyən edilməsi üçün zəruri kriminoloji tövsiyələr hazırlayan bir quruma ehtiyac vardır. Bu səbəbdən kriminoloji tədqiqatların ənənəvi (ümumelmi, psixoloji, sosioloji, statistik) və qeyri-ənənəvi (klinik halların öyrənilməsi, eksperimental, proektiv və özünüqiymətləndirmə) metodlarının **kompleks olaraq tətbiqini həyata keçirmə imkanlarına malik olan Kriminoloji Tədqiqatlar Mərkəzinin (İnstitutunun)** yaradılması zəruridir.

Bundan başqa hüquq-mühafizə orqanlarının mərkəzi aparatlarında cinayətkarlığın vəziyyətini və inkişaf meyillərini

müntəzəm öyrənən kriminoloji bölmələrin yaradılması və kriminoloq ştatının təsis edilməsi günümüzün tələblərindən biridir.

12. Cinayətkarlığın mürəkkəb məzmununun müasir dövrün tələblərinə uyğun kriminoloji tədqiqinin həyata keçirilməsi məqsədi ilə **"Kriminoloji ekspertiza haqqında" Azərbaycan Respublikası Qanununu** qəbul edilməlidir. Bu qanunun cinayət törədənlərin şəxsiyyətlərinin öyrənilməsində, profilaktik tədbirlərin tətbiqində və cinayətkarlığa qarşı mübarizə sahəsində kriminoloji ekspertizadan keçmiş normativ-hüquqi bazanın yaradılmasında xüsusi rolu olacaqdır. Kriminoloji ekspertiza üç istiqamətdə aparılmalıdır:

- *Qanun layihələrinin* – kriminogenlik baxımından.
- *Cinayət törədən şəxslərin* – kriminal davranışın səbəblərinin öyrənilməsi və profilaktikası məqsədi ilə.
- *Kütləvi informasiya vasitələrində verilən bədii və sənədli filmlərin, dövri nəşrlərin* – kiminogen davranışı stimullaşdıran səbəb və halların qarşısınının alınması məqsədi ilə.

**Tədqiqatın elmi yeniliyi**. Azərbaycan Respublikasında ilk dəfə olaraq monoqrafik səviyyədə tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin kriminoloji məzmunu müxtəlif elmi mülahizələr çərçivəsində tədqiq edilmişdir. Tədqiqat işində cinayət törədənin anlayışına müasir yanaşma sərgilənmiş, şəxsin kriminogenliyinin məzmunu kriminoloji və cinayət-hüquqi yanaşmalar səviyyəsində təhlil olunmuşdur. Tamah motivasiyasının məzmununun mütərəqqi elmi baxışlar nəzərə alınmaqla kriminoloji tədqiqi aparılmış, hüquqi boşluqlar müəyyən edilərək zəruri təkliflər verilmişdir. Tamah motivi ilə cinayət törədənlərin strukturuna daxil olan əlamətlərin və tipologiyasının yeni təsnifatı və bu sahədə tədqiqatların metodoloji bazası ilə bağlı problemli məsələlərin həllinə yönəlmiş təkliflər təqdim edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin, həmçinin

kriminoloji tədqiqatların əsas predmetlərindən olan cinayət törədənin şəxsiyyəti haqqında elmi-nəzəri müddəaların, kriminoloji düşüncə tərzinin dərinləşməsinə və inkişafına, davamlı olaraq kriminoloji təhlillərin aparılmasına münbit zəmin yaradacaqdır.

Hüquqi təsir tədbirlərinin tətbiqinin keyfiyyət meyarlarından biri cinayət törədənin şəxsiyyəti haqqında məlumatların vaxtında əldə edilməsi və praktik tətbiqinə nail olunmasıdır. Bu baxımdan tədqiqat işinin nəticələri məhkəmə və istintaq təcrübəsində, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsində, daxili işlər orqanlarının profilaktik fəaliyyətində istifadə oluna bilər.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin tədqiqinin aktual problemlərinə həsr edilmiş elmi mülahizələrin gənc alimlərin elmi araşdırmalarında, kriminologiya fənninin tədrisi zamanı istifadəsi məqsədəuyğundur.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları məqalələrdə, elmi-praktik konfranslarda və seminarda öz əksini tapmışdır.

Müəllifin "Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji tədqiqinin aktual problemləri" mövzusunda tədqiqat işinin nəticələri Polis Akademiyasında "Kriminologiya" fənninin tədrisi prosesində istifadə olunur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi girişdən(səhifə 3-17), yeddi yarımfəsli əhatə edən üç fəsildən (səhifə 7-17), nəticədən (səhifə 124-131), istifadə edilmiş ədəbiyyat siyahısından (131-138), bütövlükdə isə 138 səhifədən(30540 söz) ibarətdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

İşin **"Cinayət törədənin şəxsiyyəti kriminoloji tədqiqatların obyekti kimi"** adlı I fəsli iki paraqrafdan ibarətdir.

I fəslin **"Cinayət törədənin şəxsiyyətinin kriminoloji tədqiqi problemləri"** adlı I paraqrafında qeyd edilir ki, kriminoloji tədqiqatların əsas obyektlərindən biri cinayətkarın şəxsiyyətidir. Məhz şəxsiyyət insan davranışının dərk olunmasının əsas vasitələrindən hesab olunur.

Hər bir insan bir tərəfdən bioloji, digər tərəfdən isə sosial varlıqdır. Onu bioloji varlıq kimi səciyyələndirən xüsusiyyətlər fərd termini, sosial varlıq kimi səciyyələndirən xüsusiyyətlər şəxsiyyət termini ilə ifadə olunur.

İnsanların rastlaşdığı və daim öyrənməyə çalışdıqları mürəkkəb problemlərdən sayılan onun öz təbiəti daha çox tədqiq edilmiş və daha çox cavabsız suallarla əhatələnmiş məsələlərdən sayılır. Bu səbəbdən şəxsiyyətin anlayışı və məzmunu haqqında fikirlər də kifayət qədər fərqli cəhətləri ilə seçilir.

Şəxsiyyət haqqında konseptual elmi araşdırmalar onun mürəkkəb formalarından biri olan cinayət törədənlərin şəxsiyyətləri haqqında tədqiqatların aparılmasına təkan vermişdir. Cinayət törədənlərin şəxsiyyətlərinin kompleks kriminoloji tədqiqi kriminal davranışın səbəblərinin öyrənilməsinə, həmçinin profilaktik tədbirlərin effektiv tətbiqinə münbit zəmin yaradır.

Aparılan təhlillərə əsaslansaq, cinayətkarın şəxsiyyətinin bioloji, psixoloji və sosial məzmuna malik olması fikrini yürütmək olar. Məhz həmin xüsusiyyətlər kriminoloji tədqiqatların obyekti olmaqla cinayətkar davranışa təsir göstərən əlaqə və münasibətlərin öyrənilməsinin əsas şərtlərindən biridir.

Cinayətkarın şəxsiyyətinin bioloji, psixoloji və sosial məzmunundan irəli gələn xüsusiyyətlər isə onun strukturunun əsasını təşkil edir.

Lakin cinayət törədənin daha fundamental araşdırılması, elmi-nəzəri və təcrübi problemlərinin daha sistemli və uzunmüddətli öyrənilməsi üçün "Kriminoloji personologiya" adlı kriminoloji silsiləyə aid olan fənnin tədrisi artıq günümüzün tələbidir. Artıq kriminologiya elminin daxilində kriminoloji viktimologiya, ailə kriminologiyası, siyasi kriminologiya, iqtisadi kriminologiya və s. istiqamətlərin nəzəri və metodoloji bazası formalaşmaqdadır.

I fəslin **"Cinayət törədənin şəxsiyyətində bioloji və sosial amillərin nisbəti"** adlı II paraqrafında isə göstərilir ki, cinayət törədənin şəxsiyyəti haqqında tam təsəvvürün yaradılması üçün bioloji və sosial amillərin müqayisəsinin aparılması zəruridir. Bioloji, sosial və psixoloji katalizatorlar insanın şəxsiyyətinin formalaşdırılmasının əsasını təşkil edirsə, onların da araşdırılması şəxsiyyətin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Müasir kriminoloji tədqiqatlarda bioloji və psixoloji amillərin kriminal davranışa təsiri ilə bağlı məsələlərə maraq artaraq bu sahə daha geniş araşdırılmaqdadır. Lakin cinayət törədənin genetik amillərinin öyrənilməsi ilə bağlı tədqiqatların XIX əsrdə antropoloji məktəbin yaranması ilə birbaşa bağlılığı xüsusi olaraq vurğulanmalıdır. Məhz bu istiqamətdə aparılan ilkin tədqiqatlar kriminologiya elminin intibah dövrü adlandırıla bilər. Antropoloji məktəbin əleyhdarlarının sayının çox olmasına baxmayaraq cinayətkarlığın mənşəyi haqqında fikirlərin inkişafı kriminoloji tədqiqatlara olan marağın artmasına və cinayətlərin kriminoloji araşdırmalar vasitəsilə öyrənilməsinə əsaslanan elmi mülahizələrin yaranmasına təkan verdi. Bu mülahizələrin fonunda kriminologiya elmində cinayətkar davranışın səbəbiyyat kompleksini öyrənən iki böyük antropoloji və sosioloji məktəb daha intensiv inkişaf etməyə başlamışdır. Hər iki məktəbin tərəfdarlarının elmi araşdırmaları və gətirdikləri arqumentlər nə qədər fərqlilik yaratsa da, kriminal davranışın detallaşdırılmış və məzmunlu dərk olunması üçün bir

tamın hissəsi kimi müəyyən vahidlik də yaradırlar. İnsanın genetik xüsusiyyətlərinin və sosial mühit amilinin birlikdə tədqiq edilərək müqayisəsinin aparılması şəxsiyyətin strukturunda olan elementlərin dərk olunması və yaranması mexanizmlərinin öyrənilməsində nəzəri və təcrübi əhəmiyyəti böyükdür.

Cinayət törədənin şəxsiyyətində bioloji və sosial amillərin qarşılıqlı təsirinin tədqiqinin əhəmiyyəti kifayət qədər geniş sahələri əhatə edir. Kriminoloji ədəbiyyatlarda bioloji və sosial amillərin öyrənilməsinin dörd aspekti göstərilir: fəlsəfi, hüquqi, etik və tibbi-bioloji.

Ümumlikdə isə bioloji faktorların cinayətkarlığı şərtləndirdiyi ilə bağlı əsaslı dəlillər yoxdur. Hər hansı sosial münasibətlər fiziki keyfiyyətlərin təsiri nəticəsində davranışın xarakterinə təsir edə bilər. Bioloji amillər insanın sosial məzmununun inkişafının fizioloji əsasları kimi çıxış edir. İnsan sosial fərd olaraq özünü həm bioloji və həmçinin sosial səviyyədə ifadə edir.

Kriminal davranışın mürəkkəb məzmununun dərk olunmasında bioloji faktorlar tədqiq edilə bilər. Çünki bioloji faktorlar insan davranışında mühüm rol oynayır. Lakin onlar kriminal davranışın həlledici və əsas səbəbi qismində çıxış edə bilməzlər. Sosial mühit bioloji amillərə təsir edərək onu qidalandırır. Yekun davranış müxtəlif sosial, bioloji, psixoloji determinantların sintezindən törənir. Bu səbəbdən bioloji və sosial amillər müqayisədə tədqiq edilməli, onların insan davranışında rolu nəzərə alınmaqla öyrənilməlidir.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin kriminoloji tədqiqinə həsr edilmiş II fəslin **"Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin səciyyəvi kriminoloji xüsusiyyətlərinin öyrənilməsinin aktual problemləri"** adlı I paraqrafında tədqiqat obyekti kimi tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji xüsusiyyətləri təhlili edilir. Qeyd edilir ki, mülkiyyət əleyhinə törədilən cinayətlər yayılma miqyasına, xarakteri və ictimai

təhlükəlilik dərəcəsinə görə digər cinayət növlərindən fərqlənirlər. Ancaq şəxsiyyət, dövlət hakimiyyəti əleyhinə, iqtisadi sahədə olan və s. cinayətlər də tamah motivasiyası ilə bağlı ola bilər.

Tamah motivi ilə törədilən cinayətlər digər cinayət növlərindən fərqli olan kəmiyyət və keyfiyyət göstəricilərinə malikdirlər. Təkcə oğurluq cinayəti 2023-cü ildə Azərbaycan Respublikasında qeydə alınmış cinayətlərin təqribən 19 %-ni təşkil edir. Bu isə ölkə üzrə qeydiyyata alınmış ümumi cinayətlərin strukturunda ayrı-ayrı cinayət növləri üzrə yüksək göstəricilərdən biridir. Azərbaycan Respublikasında 2023-cü ildə cəmi 36811 cinayət qeydə alınmışdırsa, onlardan 6951 oğurluq, 9855 narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı, 2921 yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, 5620 dələduzluq, 614 xuliqanlıq, 204 soyğunçuluq və digər cinayətlərin payına düşür. Ümumilikdə mülkiyyət əleyhinə törədilən cinayətlərin göstəricilərinin təhlilini aparsaq, bu ümumi cinayətlərin 70-80%-ni təşkil etmiş olar.

Qeyd olunanlar tamah motivi ilə törədilən cinayətlərin kriminoloji tədqiqatların bir obyekti kimi öyrənilməsini zəruri edir. Lakin kriminal davranış sadəcə obyektiv gerçəklik, hadisələrin və statistik göstəricilərin cəmi kimi araşdırılmamalıdır. Çünki insan davranışını stimullaşdıran maraqlar, tələbatlar, motiv və məqsədlər "şəxsiyyət" anlamının ayrılmaz hissəsidir. Kriminal davranışın səbəbiyyat kompleksinin məzmununun və onların yaranması, həmçinin inkişafı qanunauyğunluqlarının öyrənilməsinin yeganə açarı cinayət törədənin şəxsiyyətinin tədqiqidir.

Kriminoloji xüsusiyyətlərə görə təhlillərin daha sistemli aparılması üçün tamah motivi ilə cinayət törətmiş şəxslərin iki qrupa bölünərək araşdırılması məqsədəmüvafiqdir:

1. Zorakılıqla müşayiət olunmayan tamah motivi ilə cinayət törətmiş şəxslər (qeyri-zorakı tamah cinayətkarlığı). Oğurluq, dələduzluq və s. cinayətlər bura aiddir.

2. Zorakılıqla müşayiət olunan tamah motivi ilə cinayət törətmiş şəxslər (zorakı tamah cinayətkarlığı). Bu cinayətlərə soyğunçuluq, quldurluq və s. cinayətləri misal göstərmək olar.

Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin səciyyəvi kriminoloji xüsusiyyətlərini aşağıdakı qaydada sistemləşdirilməsi təklif edilir:

✓ Tamah motivi ilə cinayət törətmiş şəxslər kəmiyyət göstəricilərinin yüksək olduğuna görə digər cinayət törətmiş şəxslərdən fərqlənirlər.

✓ Tamah motivi ilə cinayət törədən şəxslər kriminal submədəniyyətlə sıx bağlıdırlar.

✓ Tamah motivi ilə cinayət törədən şəxslərə sosial mühitin təsiri böyükdür.

✓ Tamah motivi ilə cinayət törədənlər kriminal davranışa səbəb olan dərin psixoloji keyfiyyətlərə malikdirlər.

✓ Uşaqlıq dövründən başlayan erkən kriminallaşma tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin əks-sosial istiqamətdə formalaşmasının əsas amillərindən biridir.

II fəslin **"Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin strukturu və tipologiyasının kriminoloji tədqiqi problemləri"** II paraqrafında tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji strukturu və tipologiyası haqqında geniş məlumat verilir. Kriminoloji təhlillərin vasitəsilə vurğulanır ki, cinayət törədənin şəxsiyyətinin strukturu və tipologiyasının tədqiqi vasitəsilə kriminoloji xüsusiyyət və əlamətlərin dairəsini müəyyən etmək, onların yaranması və inkişafının qanunauyğunluqlarını öyrənmək mümkündür.

Cinayət törədənin şəxsiyyətinin strukturu haqqında nəzəri və təcrübi müddəalar tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin strukturu haqqında kriminoloji fikirlərin əsasını təşkil edir.

Kriminoloji ədəbiyyatlarda cinayət törədənin şəxsiyyətinin strukturu haqqında yanaşmalar müxtəlifdir. Yanaşmaların müxtəlif olması cinayət törədənin şəxsiyyəti haqqında kriminoloji məlumatların ziddiyyətli olmasını şərtləndirir. Bu səbəbdən aparılan tədqiqatların əsas hədəflərindən biri cinayət törədənin şəxsiyyətinin strukturu və tipologiyası haqqında vahid elmi konsepsiyasının formalaşdırılmasıdır.

Kriminoloji baxımdan cinayət törədənin şəxsiyyəti ilə bağlı məlumatlar daha genişdir. Bu məlumatlar sosial, bioloji, psixoloji keyfiyyətlərlə xarakterizə olunaraq kriminogen davranışın səbəbiyyət kompleksi, kriminallaşmanın mərhələləri, kriminal davranış mexanizmi ilə bağlı xüsusiyyətlərin mahiyyətinin açıqlanmasına istiqamətlənir. Qeyd edilənlər nəzərə alınaraq, tamah motivi ilə cinayət törədənin şəxsiyyətinin strukturuna daxil olan əlamətlərin təsnifatının aşağıdakı qaydada aparılması təklif edilir:

1) **Bioloji əlamətlər**: cins, yaş, fiziki qüsurlar və s. Bu əlamətlərin sosial-demoqrafik əlamətlərin sırasında yox, müstəqil verilməsi daha arzuolunandır. Bioloji əlamətlər dəyişkən xarakterə malik deyildirlər. Lakin, sosial-demoqrafik əlamətlərin (ailə tərkibi, məşğuliyyəti, yaşayış yeri və s.) dəyişmə ehtimalları mövcuddur.

2) **Sosial əlamətlər**: Bu əlamətlərin əhatə dairəsi daha genişdir. Çünki daha dinamik və dəyişkəndirlər. Sosial əlamətlərin üç istiqamətdə təsnifatlandırılmasını məqbul sayırıq:

– demoqrafik məlumatlar (ailə tərkibi, yaşayış yeri, şəhər və ya kənd sakini olması və s.);

– sosial rol və statusla bağlı əlamətlər (ailə-məişət, peşə, ictimai-siyasi sahədə);

– hüquqi əlamətlər (cinayət-hüquqi, inzibati, kriminoloji).

Hüquqi əlamətlər cinayət törədən şəxsin kriminogenliyinin məzmunu ilə bağlı olduğu üçün onun daha geniş olaraq üç qrupda təsnifatlandırılması zəruridir:

d) cinayət-hüquqi əlamətlər: məhkumluq, kriminal davranışın motiv və məqsədi, əməlin istiqaməti və xarakteri, residivlik, qrup xüsusiyyətləri və s.

e) inzibati əlamətlər: sanksiyasında inzibati həbs nəzərdə tutulan xətanın törədilməsi, inzibati xətanın təkrar törədilməsi, polis orqanına tutularaq gətirilmənin sayı və s.

f) kriminoloji əlamətlər: kriminal status, kriminal təcrübə, özünün və ya ailədə narkotik və ya alkoqol asılılığında olan şəxslərin mövcudluğu, daxili işlər orqanlarında profilaktik qeydiyyatda olması (münaqişəli ailə, penitensiar müəssisədən qayıdan şəxs kimi və ya yetkinlik yaşına çatmayanlarla bağlı polis orqanlarında olan xidmətin əməkdaşları tərəfindən profilaktik uçota alınma) və s.

3) **Psixoloji əlamətlər**: həyati yönəliş, tələbat, maraq, dünyagörüşü, meyillər, adət və ənənələr, temperament, vərdiş və bacarıqlar, xarakter və s. Bu əlamətlər emosional, iradəvi və intellektual olaraq da sistemləşdirilə bilər.

Cinayət törədənin şəxsiyyətinin strukturunun təsnifatı əsasında cinayət törədənlərin kriminoloji **tipologiyası** aparılır. Cinayət törədənin şəxsiyyətinin strukturuna daxil olan məlumatlar konkret məzmuna malikdirlər, lakin, kriminoloji tipologiya müəyyən qədər mücərrəd xarakter daşıyır. Kriminoloji tipologiya cinayət törədənin şəxsiyyətinin strukturuna daxil olan əlamətlərin müəyyən tiplər üzrə qruplaşdırılması yolu ilə həyata keçirilir. Bu səpkili tipoloji bölgü ayrı-ayrı cinayət törətmiş şəxslərin fərdiləşərək konkret tiplər üzrə sistemləşdirilməsinə zəmin yaradır. Tipologiya cinayət törədənin şəxsiyyətinin strukturuna daxil olan əlamətlərin kriminoloji təhlilinin nəticəsidir.

Bundan başqa tipologiya cinayət törədənin şəxsiyyətinin strukturuna aid məlumatların inkişaf etdirilməsinin növbəti mərhələsi kimi qəbul edilə bilər. Tipoloji məlumatların dəstəyi ilə kriminal davranışa təsir imkanları daha da artırıla bilər.

II fəslin **"Azərbaycan Respublikasında tamah motivi ilə cinayət törədənlərin kriminoloji xarakteristikası"** adlı III paraqrafında tamah motivi ilə cinayət törədənlərin kriminoloji məzmununun daha dərin tədqiqi istiqamətlərindən biri kimi bu növ cinayətləri törədənlərin şəxsiyyətlərinin kriminoloji xarakteristikası verilir. Göstərilir ki, cinayət törətmiş şəxslərin kriminoloji xarakteristikasını aparmaqla kəmiyyət və keyfiyyət göstəricilərinin real görüntüsü formalaşdırılır.

Tamah motivi ilə törədilən cinayətlər çoxsaylı cinayət növlərindən olmaqla ümumi cinayətlərin strukturunda kifayət qədər böyük çəkiyə malikdir. Göstərilən səbəbdən bu cinayətlərin kriminoloji xarakteristikasının iki qrupa ayrılaraq təhlil olunması arzuolunandır. Birinci qrupa zorakılıqla müşayiət edilməyən tamah motivi ilə cinayət törətmiş şəxslərin (oğurluq, dələduzluq) kriminoloji göstəriciləri, ikinci qrupa isə zorakılıqla müşayiət edilən tamah motivi ilə cinayət törətmiş şəxslərin (soyğunçuluq, quldurluq) kriminoloji göstəriciləri daxildir.

Azərbaycan Respublikasında tamah motivi ilə cinayət törədənlərin kriminoloji xarakteristikası aşağıdakı qaydada ümumiləşdirilir:

– tamah motivi ilə cinayət törədənlərin əksəriyyətini kişilər təşkil edir;

– tamah motivi ilə cinayət törədənlərin strukturunda 30 yaşdan yuxarı olan şəxslərin xüsusi çəkisi böyükdür;

– bu növ cinayətlər daha çox əmək qabiliyyətli işləməyən və orta təhsilli şəxslər tərəfindən törədilir;

– qrup halında cinayət törətmiş şəxslərin sırasında qrup halında tamah motivi ilə cinayət törədənlər və kriminal təcrübəsi olanlar (əvvəllər cinayət törətmiş şəxslər) üstünlük təşkil edir.

İşin **"Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji tədqiqinin metodoloji problemləri"** adlı III fəsli iki paraqrafdan ibarətdir.

III fəslin **"Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji tədqiqinin mərhələləri" adlı I paraqrafında** tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin bioloji, sosial və psixoloji xüsusiyyətlərdən ibarət mürəkkəb məzmununun eksperimental tədqiqatlar vasitəsilə öyrənilməsinin zəruriliyi diqqət önünə çəkilir. Qeyd edilir ki, kriminoloji biliklərin inkişafının əsas şərtlərindən biri də kriminoloji tədqiqatların aparılması və onların metodoloji bazasının zənginləşdirilməsidir.

Kriminoloji tədqiqatların aparılmasının təmin edilməsi Kriminoloji Tədqiqatlar Mərkəzi (İnstitutu) vasitəsilə həyata keçirilməlidir. Müasir ictimai münasibətlərin dinamik inkişafı və dəyişkənliyi yeni cinayət növlərinin yaranmasını şərtləndirmişdir. Yaranmış şəraitdə ölkəmizdə hüquq-mühafizə orqanlarının mərkəzi aparatlarında cinayətkarlığın vəziyyətini və inkişaf meyllərini müntəzəm öyrənən kriminoloji bölmələrin yaradılması məqsədəuyğundur.

III fəslin **"Tamah motivi ilə cinayət törədənlərin kriminoloji tədqiqinin metodikası"** adlı II paraqrafında göstərilir ki, tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin öyrənilməsi metodikası kriminoloji tədqiqat mərhələlərinin mürəkkəb və məsuliyyətli hissəsinə aid edilir. Kriminoloji metodların düzgün seçilməsi və tətbiqi proseduru əldə olunacaq nəticələrin keyfiyyət göstəricilərinə, yekun kriminoloji rəyin hazırlanmasına birbaşa təsir göstərir.

Kriminoloji tədqiqatların ənənəvi (ümumelmi, psixoloji, sosioloji, statistik) və qeyri-ənənəvi (klinik halların öyrənilməsi, eksperimental, proektiv özünüqiymətləndirmə) metodlarının kompleks olaraq tətbiqi vasitəsilə cinayət törədənin şəxsiyyətinin öyrənilməsi ilə bağlı vəzifələrin tam həlli mümkündür. Artıq qeyd etdiyimiz kimi cinayət törədənin şəxsiyyətinin kompleks tədbiqi Kriminoloji Tədqiqatlar Mərkəzinin (İnstitutunun) yaradılmasından birbaşa asılıdır.

Bundan başqa kriminoloji düşüncə tərzinin inkişafı cinayət törədənlərin şəxsiyyətlərinin öyrənilməsində məhz kriminoloji metodların tətbiqini zəruri edir. Həmin metodlara kriminoloji proqnoz və planlaşdırma, həmçinin kriminoloji ekspertizanı aid etmək olar. Kriminoloji proqnoz və planlaşdırma haqqında hüquq ədəbiyyatlarında müəyyən qədər məlumat verilmişdir. Lakin kriminoloji ekspertiza bir metod kimi yetərincə tədqiq edilməmişdir. Ölkəmizdə "Kriminoloji ekspertiza" haqqında qanunun qəbul edilməsi cinayət törədənlərin şəxsiyyətlərinin öyrənilməsində, profilaktik tədbirlərin tətbiqində və cinayətkarlığa qarşı mübarizə sahəsində kriminoloji ekspertizadan keçmiş normativ-hüquqi bazanın yaradılmasında xüsusi rolu olacaqdır.

Nəticə hissəsində kriminal davranışın səbəblərinin öyrənilməsinin əsas vasitələrindən biri kimi cinayət törədənin şəxsiyyətinin kriminoloji tədqiqi ilə ümumiləşdirmələr aparılır və təkliflər yekunlaşdırılaraq təqdim edilir.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Cinayətkarin şəxsiyyətinin kriminoloji anlayişinin tədqiqi problemləri . "Polis Akademiyasının Elmi Xəbərləri" №3-4, 2017
2. Cinayət törədənin şəxsiyyətində kriminallaşmanın mərhələləri. "Polis Akademiyasının Elmi Xəbərləri" № 1,2 2018

3. Cinayətkarın şəxsiyyətində bioloji və sosial amillərin nisbəti. "Polis Akademiyasının Elmi Xəbərləri" № 3, 2019

4. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin kriminoloji tədqiqinin əhəmiyyəti. "Polis Akademiyasının Elmi Xəbərləri" № 4, 2019

5. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoloji xüsusiyyətlərinin tədqiqinin aktual problemləri. Azərbaycan Hüquq Jurnalı №2-2021.

6. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin tədqiqinin əhəmiyyəti. "Polis Akademiyasının Elmi Xəbərləri" № 3(31), 2021

7. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətinin strukturunun kriminoloji tədqiqi problemləri. Qanun Elmi hüquq jurnalı. № 02(328), 2022

8. Исследования лиц, совершивших преступления по корыстным мотивам, и их криминологическая характеристика в Азербайджанской Республике. НАУКОВИЙ ВІСНИК Львівського державного університету внутрішніх справ. 3 – 2016.

9. Criminological study of persons and typology committing crimes with a mercenary purpose . Technium Social Sciences Journal Vol. 39, 792-798, January, 2023 ISSN: 2668-7798 www.techniumscience.com

10. Modern Methodsof Criminological Study of the Personality of Selfish Criminals: A Critical Review and Comparative Analysis. Futurity Economics&Law, 3(4). 67-85. https://doi.org/10.57125/FEL.2023.12.25.5

11. Cinayətkarın şəxsiyyətinin kriminoloji tədqiqinin bəzi aspektləri. DİN-in Polis Akademiyası "Azərbaycan polisinin tarixi və inkişaf perspektivləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans. Bakı 2018.

12. Значение исследования лиц, совершивших преступления по корыстным мотивам и их криминологическая характеристика в Азербайджанской Республике. Azərbaycan Respublikasinin DİN-in Polis Akademiyası "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" mövzusunda IV Beynəlxalq Elmi-praktik Konfrans . Bakı 2017.

13. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin kriminoji tipologiyasının tədqiqi problemləri. Bakı Dövlət Universiteti Hüquq Fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrası. "Cinayət hüququnun aktual probemləri" adlı elmi məqalələr Məcmuəsi. Bakı 2022.

14. Проблемы исследования этапов криминализации личности преступника. Российская мировая наука: новые вызовы и поиски их решений. Сборник научных трудов международной научно-практической конфедерации ЦОУ ВО Академия управления и производства, г. Москва. СПб.: Изд-во НИЦ АРТ, 2018.-392 с.: ил. ISBN 978-906968-72-2

15. Tamah motivi ilə cinayət törədənlərin şəxsiyyətlərinin tədqiqi mərhələlərinin bəzi kriminoloji problemləri. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası. "Mülkiyyət əleyhinə törədilən cinayətlərin tədqiqinin cinayət-hüquqi, cinayət-prosessual və kriminalistik aspektləri" mövzusunda Beynəlxalq elmi-praktik konfrans. Bakı 2023.

Dissertasiyanın müdafiəsi 25 11 2024-cü il tarixində, saat 11:00-da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 10 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.10.2024-cü il
Kağızın formatı: A5 (210 x 148 mm)
Həcm: 5729 işarə
Tiraj: 120